Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası
dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin
razılaşdırılması haqqında

# MƏLUMAT

"Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrantların verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması" Qaydası Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli, 652 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Fərmandan irəli gələrək Şura dövlət orqanlarından daxil olan müraciətlərə baxmış və onları müvafiq tələblərə uyğun olaraq cavablandırmışdır.

Qrant verə bilən dövlət qurumlarının adları Azərbaycan Respublikasının Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı ilə müəyyən edilmişdir. Fərmana əsasən aşağıda adları qeyd olunan 9 dövlət qurumu, dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq hüquqi və fiziki şəxslərə qrant verə bilər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi,
2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi,
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi,
4. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,
5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi,
6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi,
7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi,
8. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası,
9. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

"Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrantların verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması" Qaydasının 2-ci bəndinə uyğun olaraq, 2015 –ci ilin oktyabr ayından 2016-cı ilin oktyabr ayına kimi Şuraya 3 dövlət qurumu tərəfindən müsabiqələrə və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzulara dair məlumatlar təqdim edilmişdir. Həmin qurumlar aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qeyd olunan müddət ərzində 8 mövzu üzrə müsabiqə keçirilməsi təklif olunub.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
tərəfindən qeyd olunan müddət ərzində 20 mövzu üzrə müsabiqə keçirilməsi təklif olunub.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən qeyd olunan müddət ərzində 5 mövzu üzrə müsabiqə keçirilməsi təklif olunub.

"Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrantların verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması" Qaydasının 3-cü bəndinə uyğun olaraq, Şura tərəfindən təqdim olunmuş mövzular qiymətləndirilmiş və həmin mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy verilmişdir.

Qaydaların 4-cü bəndinə uyğun olaraq, 3 dövlət qurumu keçirdiyi müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları barədə məlumatları Şuraya təqdim etmişdir. Bu məlumatlarda müsabiqələrə təqdim olunan layihələr və müvafiq dövlət qurumlarının müsbət rəy verdiyi layihələr haqqında məlumatlar qeyd olunmuşdur. Şura daxil olan məlumatları diqqətlə araşdıraraq hər bir layihəyə fərdi qaydada rəy vermişdir.

Qeyri-hökumət təşkilatları barədə məlumatları Şuraya təqdim dövlət qurumları aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qeyd olunan müddət ərzində keçirilmiş 2 maliyyə yardımı müsabiqəsi çərçivəsində 17 layihə, 2016-cı ildə həyata keçirilmiş 1 qrant müsabiqəsində 44 layihə təqdim olunub. Təqdim olunmuş layihələr qiymətləndirilib və ümumilikdə 56 layihəyə müsbət rəy verilib.
2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən qeyd olunan müddət ərzində keçirilmiş 1 qrant müsabiqəsi çərçivəsində 23 layihə təqdim olunub. Təqdim olunmuş layihələr qiymətləndirilib və 12 layihəyə müsbət rəy verilib.
3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən qeyd olunan müddət ərzində keçirilmiş 1 qrant müsabiqəsi çərçivəsində 4 layihə təqdim olunub. Təqdim olunmuş layihələr qiymətləndirilib və 1 layihəyə müsbət rəy verilib.

**Qeyd:** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından Dövlət Sığorta Nəzarəti Xidməti 30 dekabr 2015-ci ildə müsabiqə mövzuları barədə məlumatı Şuraya təqdim edib. Həmin qurum Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanı ilə ləğv olunduğu üçün müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları barədə məlumatları Şuraya təqdim etməyib.

“Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrantların verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması” Qaydasının tətbiqi ilə əlaqədar xidməti asanlaşdırmaq məqsədilə elektron proqram təminatı yaradılmışdır. Yaradılmış elektron proqram təminatı Şuranın elektron xidmətlər portalı olan e-qht.az saytında yerləşdirilmişdir.